# FÜZULİNİN QƏBİRÜSTÜ ABİDƏSİ

Divan şeirində zirvələrə yüksələn Füzuli, türk ədəbiyyatı tarixində müstəsna bir yer tutur. Türkcəsinin gözəlliyi sayəsində dildən-dilə, eldən elə dolaşan şeirləri dönəmin coğrafi məkanında böyük ad, əks-səda çıxarmışdı. Divanlarının əlyazmalarının üzü ən çox köçürülən və yayılan şairlərin başında Füzuli durmuşdur. Keçən 20-ci yüzilliyə qədər Füzulinin divanını əzbər bilən və onu bir hikmət kitabı sayan yüzlərcə heyranı və maraqlısı görülmüşdür. Bütün bu özəllikdən dolayı Füzuli bütün dövrlərdə Türklüyün yetişdirdiyi ən böyük şairlərdən biri kimi qəbul edilmişdir.

Türkcənin ən lirik şairi olan Füzuli Ərəb İraqında doğulub, burada boya-başa çatmış, ömrü boyunca İraq dışına çıxmamışdır. Doğum tarixi bəlli olmayan Füzulinin Əhdiyə görə, Hicri 963 (M.1556) ilində taun xəstəliyindən vəfat etdiyi qeyd edilmişdir. Süleyman Faik Əfəndi məcmuəsində verilən bilgilərə görə şair Kərbəlada dəfn olunmuşdur.

Füzulinin məzarı Peyğəmbərimizin nəvəsi Həzrət Hüseynin türbəsinin Qiblə qapısının yaxınlığındakı türbədə idi. 1960-1970-ci illərdə Türkiyə və İraq arasında imzalanan mədəni anlaşmaya görə, Türkiyə Füzuliyə yaraşan bir türbə tikəcək, İraq hökuməti isə bunun müqabilində ərəb şairi İmreül Kaysın Ankaradakı məzarını qaydaya salacaqdı. İmzalanmış protokola uyğun olaraq 1970-ci ilin sentyabr ayında texniki məsələləri dəqiqləşdirmək və proyekti hazırlamaq üçün nümayəndə heyəti Bağdada getmiş və görüşlər keçirmiş. Ancaq daha sonra deyilənləri həyata keçirməyə qəti addımlar atılmamışdır. Beləcə, neçə-neçə illər keçmiş məzar proyekti barədə kimsənin xəbəri olmamışdır.

Füzulinin İmam Hüseyn məscidinin Qiblə qapısının yaxınlığındakı türbəsi isə 1984-cü ilin payızında "yol genişləndirmə" səbəbindən bir neçə dəqiqə içində yerlə-yeksan edilmişdi. Türbəni dağıtmazdan bir gün əvvəl Füzulinin məzarı açılmış, nəşi (sümükləri) bir qutuya yığılaraq Sultaniyə Məscidinə aparılmışdır. Daha sonra bu məscid də sökülmüş və Füzulinin qutu içindəki nəşini məscid idarəsinin gözətçisinin yataq otağına qoymuşdular. Bu işlər səssiz-sədasız cərəyan edərkən bəzi qəzetçilər Füzulinin məzarının üzərində salınan maşın yolunun şəkillərini yaydılar və ictimaiyyət buna ciddi reaksiya verdi.

Füzuliyə Sovetlər sahib çıxmaq istədi. Sovetlər Birliyinin bir cümhuriyyəti olan Azərbaycanın milli şairi qəbul edilən Füzulinin nəşinin Bakıya göndərilməsini istədi. Bu səfər İraq hökuməti yanında Füzuli qiymətə mindi və ərəb şairi olmasa belə, Füzulinin iraqlı bir şair olmasından dolayı nəşinin dışarıya verilməyəcəyi bildirildi. Beləcə, İraq bu tələbləri qəbul etmədi.

Sovetlər Birliyi dağıldıqdan sonra müstəqil bir dövlət olan Azərbaycan bu işi başlı-başına buraxmadı. Bir neçə dəfə İraqa heyətlər göndərdi. Azərbaycanlıların istəyi ilə 17 sentyabr 1994-cü ildə Bağdadda "Füzuli Konqresi" toplandı. Elçin Əfəndiyevin başçılığı ilə 128 nəfərdən ibarət Azərbaycan heyəti 3 gün sürən konqresdən sonra Füzulinin məzarı işini təkrar gündəmə gətirdi. İraq Kültür Bakanlığı İmam Hüseynin türbəsini çevrələyən Caminin (məscid) Qiblə girişindəki "Əlyazmalar Odası"nı uyğun gördü və Füzulinin nəşi orada gömüldü (bax: Murad Bardaqçı. "Hürriyyət" qəzeti, 23 dekabr 2001).

**Füzulinin qəbirüstü abidəsi**

Türk dünyasının ortaq şairi Füzuliyə məzar abidəsi məsələsi 1960-1970-ci illərdən gündəmə gəlmişdir. Bu layihənin Türkiyə tərəfindən həyata keçirilməsi, eyni zamanda, iki qonşu ölkənin dostluq ilişkilərini daha da möhkəmləndirəcəyi şübhəsizdir. Bu düşüncələrlə İraq Türkman millət vəkilləri Füzulinin şanına yaraşan qəbirüstü abidənin (mavzoley) yapılması barədə Bağdaddakı səlahiyyətli şəxslərlə danışıq aparmışlar. Layihənin həyata keçirilməsini onlar da istəmişlər. Beləliklə, qərar qəbul edilmişdir ki, Füzulinin qəbirüstü abidəsinin proyektini Fatih Sultan Mehmet Vakif Universitetinin Memarlıq və Layihə fakültəsi hazırlasın.

Qərara alındı ki, qəbirüstü abidə Kərbəla şəhərinin mərkəzində sıxlıq olan yerdə deyil, açıq və asanlıqla ziyarəti mümkün olan bir yerdə tikilsin. Səkkiz yüz metrlik bir sahədə ucaldılacaq abidə üç ana bölümdən ibarət nəzərdə tutulub.

Birinci bölümdə Türbə səkkiz bucaqlı, yarıqapalı bir məkan olaraq düşünülmüşdür.

İkinci bölüm 20-25 nəfərlik bir namazgah və bunu tamamlayan səkkizbucaqlı fontandan ibarətdir.

Üçüncü bölüm isə türbə, namazgah və fontanı da içində olan yığıncaq meydançasıdır.

Proyektin başlıca ünsürü (elementi) səkkizbucaqlı türbənin 5 tərəfinin qapalı olmasıdır. Qapalı tərəflərdən Qiblə tərəfdə olanı pəncərəsiz, digər 4 tərəf isə pəncərəlidir.

Yığıncaq meydançasına baxan üç tərəf isə açıq buraxılmışdır. Bu açıqlıq şairin məşhur beytində dilə gətirdiyi:

Nə yanar kimsə mənə atəşi-dildən özgə,
Nə açar kimsə qapım badi-səbadan qeyri

yəni "könül atəşindən başqa kimsə mənə yanmaz, sabah rüzgarından başqa da qapımı açan olmaz" sözlərindən təsirlənərək türbə qapısız və açıq nəzərdə tutulmuşdur.

Yuxarıda verilən beyt də türbənin içində Qiblə divarının üzərində yazılacaqdır.

Türbənin üst örtüsü dairə şəkilli günbəz yerinə səkkizbucaqlı geometrik günbəz biçimində planlaşdırılmışdır. Eyni ölçü biçimi səkkizbucaqlı fontan üçün də nəzərdə tutulmuşdur.

Türbənin tamamı betondan heykəl kimi layihələndirilmiş, örtüyü, divar və s. inşası eyni materialla nəzərdə tutulub.

Türbənin ortasında şairin nəşinin saxlanacağı simvolik məzar və başdaşı yer alacaq. Başdaşında Füzulinin haqqında məlumat veriləcək. Türbənin ətrafı yaşıllaşdırılacaq. Bu sadə abidənin inşa olunması türkcə danışan 200 milyonluq Türk dünyasının ortaq diləyini əks etdirir. Xeyirlərə vəsilə olması diləyilə bu abidə, eyni zamanda, barışın və qardaşlığın simvolu sayılacaq. Başda İraq və Türkiyə xalqları olmaqla, Füzuli sevgisinin bütün İslam dünyasının da könlünü birləşdirməsi diləyilə...

**Suphi Saatçı**
**Prof.Dr.**

**Ədəbiyyat qəzeti.- 2018.- 24 noyabr.- S.5.**

## Məhəmməd Füzulinin başına gələnlər...

Türk ədəbiyyatının ən önəmli adlarından olan Füzuli İraqda yaşayıb. Həyatını Bağdad, Kərbəla və Nəcəf şəhərlərində keçirib. O, 1556-cı ildə dünyadan köçəndə, Kərbəlada - Məhəmməd peyğəmbərin nəvəsi Hüseynin yanında dəfn edilib.

Əsl adı Məhəmməd olan Füzulu Oğuzların Bayat boyundandır və türkçənin ən lirik şairi kimi tanınır.

Dillərdən düşməyən sevgi şeirlərinin, “Leyli və Məcnun”un, “Salam verdim, rüşvət deyil deyə, almadılar” misralarının müəllifi olan Füzulinin Kərbəladakı sümüklərinin başına ölümündən əsrlər sonra o qədər hadisə gəlib ki....

Saddam Husseinin buldozerləri onun qəbrini uçurdub, sümükləri bir məsciddən o birinə aparılıb. Daha sonra başqa dövlətlərin də qarışdığı qəbir davası ortaya çıxıb.

Ölümündən 400 il sonra Füzulinin başına gələnləri siz də bilin.

1984-cü ildə - isti bir payız gecəsində Kərbəlada Saddam Hussein-in buldozerləri Həzrət Hüseynin türbəsini dövrəyə aldı. Türbənin qiblə qapısındakı və yaşı əsrlərlə ölçülən günbəzli kiçik tikili yarımca saat içində yerlə bir edildi.

Daş yığınına çevrilən bu tikili Füzulinin üstü bir gün əvvəl açılmış boş qəbri idi. Şairin sümükləri yığılıb bir qutuya qoyulmuş və yaxınlıqdakı kiçik Sultaniyyə məscidinə yerləşdirilmişdi.

Füzulinin sümükləri illərlə həmin məsciddə qalıb. Yola görə buldozerlər bu məscidi də uçurdur. Bu dəfə şairin sümükləri uçurulan məscidin nə cürsə salamat qalan bağçasına köçürülür.




O günlərdə İraq Moskvadan nota alır. Notada Sovet İttifaqının tərkibində olan Azərbaycanın şairi kimi tanınan Füzulinin məzarı ətrafında baş verənlərdən narahatlıq dilə gətirilir. Bildirilir ki, İraq Füzulinin sümüklərini Azərbaycana göndərməyi qəbul etsə, Sovet İttifaqı bundan məmnun olar.

“Sağlığında kor Fatma, öləndə badam gözlüm” məsəlində olduğu kimi, bir müddət əvvəl Füzulinin qəbrini yerlə bir edən iraqlıların gözündə şair qiymətə minir. İraqlılar “Bağdadlı Süleymanın oğlu Məhəmməd ərəb şairi olmasa da, İraqda yaşayıb, İraqın şairidir, sümükləri bir yana, heç qəbrinin olduğu torpağın bir ovucu da ölkədən çıxarıla bilməz!” - deyirlər.

Bir neçə il keçir. 1994-cü ildə Azərbaycan artıq müstəqil bir dövlət idi. Bağdadla rəsmi əlaqələr də qurmuşdu. Azərbaycan yenə Füzulinin sümüklərini istəyir. Şairin sümükləri qarşılığında İraqa “biz türkləriyola gətirərik” deyib, ərəb ədəbiyyatının ən güclü şairi İmrul Qeys-in Ankaradakı qəbrini vəd edir.

Bağdad yenə “olmaz” cavabını verir, ancaq Azərbaycanın basqıları sürür. Belə olan halda, İraq 1994-cü il sentyabrın 17-də Bağdadda “Füzuli Qurultayı” keçirir.

Bu qurultayda Azərbaycanıyazıçı Elçin Əfəndiyevin başçılığyla 128 füzulişünas təmsil edir. Onlar “qəbir məsələsini çözmədən Bağdaddan bir addım da atmayacağıq!” - deyirlər. İraqın Mədəniyyət Nazirliyi ilə üç gün, üç gecə mübarizə gedir. Sentyabrın 19-da – axşam, İraq söz verir ki, adına layiq bir yerdə Füzuliyə yeni türbə ucaldacaq.

Qəbrin yerini də azərbaycanlılar seçir. Füzulinin sümükləri Kərbəladakı Həzrət Hüseyn türbəsini dövrəyə alan məscidin qiblə girişindəki əlyazmalar otağına köçürülür və giriş qapısının solundakı divarın altında dəfn edilir. Üstünə də Kərbəla mərmərindən kitabə qoyulur.

İraq və Azərbaycan arasında bu müzakirələrin getdiyi vaxtda Füzulini özünün ən ulu şairi sayan Türkiyənin adı da çəkilmir. Buldozerlər Füzulinin qalıqlarını silib-süpürəndə nə Xarici İşlər Nazirliyi tükünü tərpədir, nə də universitetlər...

Füzuli 1995-ci ildən bəri Kərbəladakı yeni türbəsində yatır. Türbənin qübbəsində onun bir məşhur beyti əksini tapıb: “Nə yanar kimsə mənə atəşi-dildən özgə, nə açar kimsə qapım badi-səbadan qeyri”. Yəni, “könlümdəki alovdan başqa kimsə mənə yanmır, dan yelindən başqa kimsə qapımı açmır...”.

https://qafqazinfo.az/news/detail/mehemmed-fuzulinin-basina-gelenler-116840

## Füzulinin məzarının aqibəti necə olacaq? - ARAŞDIRMA




***"Lövhə üzərində onun kürdcə mərsiyələr yazan şair olmasını qeyd edənlər cəmiyyətdə qarşıdurma yaratmaq istəyən adamlardır. Dahi şairin məzarı ilə bağlı problem sönmüş ocaqdır, onun üzərinə neft töküb alışdırmaq və bütün türk dünyasını Füzulinin işığı ilə nurlandırmaq lazımdır"***

Bir neçə ay öncə Kərbəla şəhərində olarkən dahi şair Məhəmməd Füzulinin rəmzi məzarını ziyarət elədim. Bildiyiniz kimi qüdrətli şairin İmam Hüseynin dəfn olunduğu ziyarətgah kompleksinin həyətindəki tarixi qəbri tikinti adı ilə aparılan işlər zamanı sökülüb. Son illərdə ölməz sənətkarın adını İmam Hüseyn məqbərəsinin giriş qapılarının birinin yanındakı divara həkk edərək, daşın üzərinə bu yerdə dəfn olunduğunu yazıblar. Qeyd edim ki, hər il Kərbəlaya çoxsaylı azərbaycanlı zəvvarlar ziyarətə gəlsələr də, burada şairin məzarının yerini nişan verən hansısa lövhəyə rast gəlmək olmur. Nəticədə şairi yad etmək istəyənlər rəmzi məzarın da yerini tapa bilmirlər.

### Hazırda vacib olan məsələlər




Bundan başqa, rəmzi məzarın üzərinə belə yazılıb: "Hicri 10-cu əsrdə yaşamış, ərəb, türk və kürd dillərində İmam Hüseyn haqda mərsiyələr qələmə alan şair Füzuli Bağdadinin qəbri". Məlumdur ki, Füzuli ərəb və türk dillərindən başqa, farsca əsərlər də yazıb, kürdcə isə bir misrası belə yoxdur. Kərbəlada yaşayan çoxsaylı şiələri nəzərə alsaq, gərəkdir ki, şairin məzarında farsca irsini nişan verən qeydlər də ola. Hazırda isə daha vacib məsələlər bunlardır: şairin qəbir yerinin itməsinin qarşısı alınsın, məqbərəsi yenidən bərpa olunsun, yaxud nəşi Vətənimizə qaytarılsın, eyni zamanda, indiki rəmzi məzarın üzərində kürdcə mərsiyə yazan şair olması ilə bağlı yanlışlıq aradan qaldırılsın və ziyarət kompleksində aparıcı dillərdə, o cümlədən Azərbaycan dilində şairin məzarının yerini bəlli edən lövhələr vurulsun.

### Kərbəla valisi ilə danışıqlar

Füzulinin məzarı ilə bağlı yaranan problemlə əlaqədar Azərbaycanın İraq Respublikasındakı Səfirliyinin müvəqqəti işlər vəkili Nəsir Məmmədovla əlaqə saxladıq. Nəsir müəllim bildirdi ki, bu məsələ Azərbaycan dövlətinin diqqət mərkəzindədir. Prezident Administrasiyası, Xarici İşlər Nazirliyi, eləcə də Mədəniyyət Nazirliyi lazımi işləri görür. O bildirdi ki, aprel ayının 7-də Kərbəla şəhərinin valisi Nasef Əl Xəttab ilə görüşüb, onunla şairin məzarı xüsusunda danışıqlar aparıb, konkret nəticələr olanda ictimaiyyətə əlavə məlumat veriləcək.

## Səddam Hüseyn ilə görüş



Zamanında ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə dahi şairin nəşinin ölkəmizə qaytarılmasına təşəbbüs göstərilib, ciddi addımlar atılıb. Amma İraq dövlətinin bu məsələdə mövqeyi birmənalı olmayıb. Məlum problemlə bağlı dövlətin tapşırığı ilə **Xalq yazıçısı Elçin** də çox səy göstərib, işlər görüb, ancaq qarşı tərəfin anlaşılmaz mövqeyi məqsədin reallaşmasına imkan verməyib. Elçin müəllim həmin hadisələri belə xatırlayır: “Zaman-zaman Azərbaycanın İraqdakı səfirliyi, eləcə də oradakı aidiyyəti dövlət orqanları ilə Məhəmməd Füzulinin nəşinin ölkəmizə gətirilməsi, heç olmasa məqbərəsinin inşası barədə fikir mübadilələri aparırdım. Danışıqlarımız nəticəsində İraq tərəfi söz vermişdi ki, dahi şairin Kərbəla şəhərində məqbərəsi ucaldılacaq. M.Füzulinin 500 illik yubileyi ilə bağlı İraqda keçirilən “Füzuli günləri”ndə iştirak edərkən həmin vaxt İraqın prezidenti olan Səddam Hüseyn məni qəbul etdi. Orada bir sıra məsələlərdən söhbət açdıq, eləcə də şairin nəşinin vətənimizə qaytarılmasından. S.Hüseyn də etiraf etdi ki, İraqda yaşasa da, Füzuli azərbaycanlıdır, sonra bildirdi ki, əslində, o, bütün dünyanın şairidir. Və həmin görüşdə İraqın mədəniyyət nazirinə şairin məzarı üzərində məqbərənin inşası ilə bağlı təkliflər hazırlayıb ona təqdim etməsin itapşırdı. Bakıya qayıdandan sonra da onlarla əlaqə saxladım, amma nəticə olmadı. Hər dəfə söz verirdilər, amma heç nə etmirdilər. Axırda da məlum səbəblərə görə əlaqələr tamam pozuldu”.

### Füzuli məscidi də dağılır

Problemlə bağlı **İraq Türkmən Jurnalistlər Cəmiyyətinin sədri Şəmsəddin Kuzəçinin** fikirlərini də öyrəndik: “Məhəmməd Füzulinin atası Osmanlı dönəmində Kərkükə köçüb, orada onların evi olub. 1981-ci ildə Kərkük qalası Səddam Hüseyn tərəfindən boşaldılandan sonra o ev də dağıdıldı. Amma Füzuli məscidi hələ də qalır, ancaq onun dağılmaq təhlükəsi var. Biz zaman-zaman Kərbəlada Füzulinin heykəlinin ucaldılması üçün çox çalışmışıq. 2012-ci ildə İraqın keçmiş idman naziri Rasim Məhəmmədcəfər mənə dedi ki, Füzuli Festivalına Türkiyədən və Azərbaycandan 10 şair dəvət elə. Mən beş azərbaycanlı, beş türkiyəli şairi İraqa çağırdım. Onda bizi Kərbəlada bir neçə yerə apardılar ki, Füzulinin qəbri buradadır. Biz isə bilirdik ki, onun həqiqi məzarı yol Kərbəlada çəkilərkən yerin altında qalıb. Həmin zaman nazirdən soruşduq ki, Füzulinin Kərbəlada heykəlinin ucaldılması üçün bizə yer ayıra bilərlərmi? O, məsələnin müsbət həllinə söz verdi. Dedi ki, siz heykəli hazırlatdırıb gətirin, qalanı bizlikdir. Şəhər icra başçısı da təklifə razı oldu, amma gələn heyət sonradan bu məsələyə başısoyuq yanaşdı”.




### Ortaq layihə gerçəkləşdirmək lazımdır

Kuzəçi, Füzulinin kürd şairi olması ilə bağlı qeydin təxribat xarakterli olduğunu bildirdi: “Bu gün Kərbəlada Füzulinin məzarı kimi təqdim olunan lövhə üzərində onun kürdcə mərsiyələr

yazan şair olmasını qeyd edənlər cəmiyyətdə qarşıdurma yaratmaq istəyən adamlardır. Əvvəllər onun məqbərəsində sadəcə türk, fars və ərəbcə yazan şair olduğu həkk edilmişdi. Mən İraqda yaşayan azərbaycanlı kimi Azərbaycan, Türkiyə və İraq dövlətlərinə müraciət edirəm ki, Füzulinin Kərbəlada heykəlini və məqbərəsini ucaltsınlar. Nə xoş ki, Füzulinin Azərbaycanda heykəli var, insanlar onun qəzəllərini əzbər bilirlər. Amma Türkiyədə, İraqda, eləcə də Kərkükdə elm və söz adamlarından başqa onu, demək olar ki, tanıyan azdır. Ötən ay Bakıda idim, Rafael Hüseynovla görüşdüm. Füzulinin heykəlinin Kərbəlada ucaldılması üçün ortaq layihə gerçəkləşdirmək barədə onunla söhbət etdim və fikirlərimi çox yaxşı qarşıladı. Füzulinin məzarı ilə bağlı problem sönmüş ocaqdır, onun üzərinə neft tökük alışdırmaq və bütün türk dünyasını Füzulinin işığı ilə nurlandırmaq lazımdır".

Əlbəttə, söz sərkərdəsinin məzarı ilə bağlı məsələlər həllini tapsa, çox gözəl olar. Növbəti həftələrdə bu məsələ ilə bağlı Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, Mədəniyyət Nazirliyi, Milli Məclisin Mədəniyyət Komitəsi və Azərbaycan Yazıçılar Birliyinin də mövqeyini, məqsədlərini, bu xüsusda düşüncələrini öyrənib oxucuları məlumatlandıracağıq.

**Fərid Hüseyn**

**https://kaspi.az/az/fuzulinin-mezarinin-aqibeti-nece-olacaq-arasdirma**